# Prezident İlham Əliyevin rəhbərliyi illərində taleyüklü qərarlar qəbul olunub

***2024**-cü il yanvarın 10-da yerli televiziyalara müsahibəsində Prezident İlham Əliyev bəyan etmişdi ki, müstəqillik tarixində ilk dəfə olaraq suveren Azərbaycanın bütün ərazilərini əhatə edən seçkilər bütöv bir dövrə yekun vurur, mahiyyət və keyfiyyət etibarı ilə yeni dövr başlanır. Fevralın 14-də Milli Məclisdə baş tutmuş və Prezidentin andiçmə mərasimindəki fenomenal yaddaşa və müstəsna dövlətçilik təcrübəsinə əsaslanan çıxışı ilə cənab İlham Əliyev yeni dövr üzrə prioritetlərimizi, o cümlədən daxili və xarici siyasət kursunu bəyan etməklə məqsədlərimizin aydın və korrekt mənzərəsini açmış oldu. Cənab İlham Əliyev Parlamentdə tarixi çıxışında bildirdi ki, qarşıdakı dövr üzrə Azərbaycan Respublikası təhlükəsizliyi və müdafiəsini daha da gücləndirmək naminə ordu quruculuğu və hərbi sənayenin inkişafı prosesinə xüsusi önəm verməkdə davam edəcək.*





Məlumdur ki, Azərbaycan Respublikası konstitusion səviyyədə başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Lakin sirr deyil ki, bu gün özünü beynəlxalq ictimaiyyətin təmsilçisi kimi təqdim edən, lakin beynəlxalq hüquqa hörmətlə yanaşmayan subyektlər də daxil bir çox dövlətlər üçün bu prinsip keçərli deyil. Xüsusən Vətən müharibəsində və antiterror tədbirlərində müstəsna qələbəmizin nəticəsi olaraq cənab İlham Əliyevin yaratdığı yeni reallıq fonunda bu güclərin riyakar mahiyyəti üzə çıxdı. Bu mənada, güclü ordu quruculuğunun davam etdirilməsi yeni dövrdə əsas prioritet olmalıdır ki, bütün mümkün təhdidləri zərərsizləşdirək. Yalnız ötən 10 aylıq periodda diqqət etsək, istər hərbi xərclərə büdcədən ayrılan vəsaitin kəskin artımı, istər silahlı qüvvələrin müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar həqiqətən cənab İlham Əliyevin vəd etdiyi yeni dövrün koordinatlarını aydın formada ortaya çıxardı. Möhtərəm Prezident eyni zamanda göstərdi ki, artıq Azərbaycan bu islahatlara yalnız hərbi gücün artması yox, həm də suverenliyin elementi kimi yanaşır və real situasiya, mövcud iradə də diktə edir ki, strateji uğurlar davamlı olsun. Həqiqətən də qütblərarası ziddiyyətlərin dərinləşdiyi bir məqamda Cənubi Qafqaz coğrafiyasında suveren olmaq sadə məsələ deyildir. Çünki hazırda faktiki olaraq bir çox dövlətlər üçün mövcudiyyət və fəaliyyət qrafiki həmin ölkələrin paytaxtlarından çox kənarda, sərhədlərindən çox uzaqda cızılır. Nəticədə bir çox beynəlxalq subyektlər daxili və xarici siyasətini imperialist mərkəzlərdən gələn tezislər əsasında quraraq "demokratiya və insan haqları" oyunlarının iştirakçısı kimi çıxış etməkdədirlər. Lakin danılmaz bir reallıq var ki, cənab İlham Əliyev bu təcavüzkar cəhdləri bütün platformalarda fiaskoya uğratmışdır. Prezident İlham Əliyevin Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinə və "RİA Novosti" Agentliyinə müsahibəsi mürəkkəb bir bölgədə geosiyasi reallıq yaratmış bir liderin diktə etdiyi yol xətirəsi olmaqla bərabər, həm də regionda sülh və sabitlik üçün atılan addımların nəticələri, bütövlükdə dayanıqlı sülh prosesinin perspektivlərinin müəyyən olunması baxımından önəmli siyasi hadisə hesab edilməklə, həm də qələbəmizin inikası idi.

Azərbaycan hərbi sənayenin inkişafının birinci mərhələsini artıq uğurla başa vurub. Növbəti mərhələ isə daha genişmiqyaslı olmaqla Azərbaycanın bu istiqamətdə xarici asılılığının kəskin azaldılmasına yönələcək ki, bu da siyasi-iqtisadi müstəqilliyimizin ardınca müdafiə sənayesi sahəsində də suverenliyimizə töhfə olacaq. Məhz bu strategiya cari il ərzində Azərbaycanın sülh prosesində özünün direktivlərini diktə etməsi və Bakı-İrəvan arasında cənab İlham Əliyevin tezislərinə müvafiq olaraq sülh danışıqları delimitasiya və demarkasiya prosesindən ayrılması ssenarisi üzrə apardı. Nəticədə prosesin hər iki istiqamətində ümidverici məqam yarandı. O cümlədən hərbi əməliyyatlar zamanı Ağdam, Kəlbəcər və Laçını bir güllə atmadan geri qaytarmağı bacaran cənab İlham Əliyev ilin əvvəlində Qazaxın 4 kəndini eyni qaydada, savaşsız-döyüşsüz geri aldı. Bundan başqa, cənab İlham Əliyev strateji baxışı hesabına separatizmlə bağlı məsələdə də son nöqtəni qoydu. Novruz tonqalını Xankəndidə qalamaqla cənab İlham Əliyev separatizmin son izini də təmizləmiş oldu.

Proseslərin cənab İlham Əliyevin Azərbaycan dövlətçilik maraqlarında ehtiva olunan iradəsinə uyğun olaraq bu istiqamətdə axarı isə zərurətdir. Çünki cənab Prezidentin inaqurasiya mərasimindəki tarixi çıxışında qeyd etdiyi kimi, "biz İkinci Qarabağ müharibəsi və antiterror tədbirləri ilə sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq". Düzdür, dövlət başçısının təbiri ilə desək, biz Azərbaycan üçün təhdid görmürük, "çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək". Lakin unutmamalıyıq ki, ideoloji risklər sərhəd tanımır. Bu mənada, dövlət başçısı təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsinə həm də ideoloji risklərdən qorunma imkanı kimi baxır. Ümumiyyətlə, cənab İlham Əliyev üçün azərbaycançılıq ideologiyası ailə dəyərlərinin qorunması, gənc nəslin milli məfkurə və vətənpərvərlik ruhunda tərbiyə olunmasında ehtiva olunur. Bu mənada, əminliklə demək olar ki, yeni epoxada ailə və məktəb tərbiyəsi istiqamətində dövlət siyasəti daha çevik və effektiv metodlarla realizə olunacaq. Cənab İlham Əliyev ardıcıl qələbələri ilə Azərbaycanın ən qüdrətli dövrünü başlatmaqla elə siyasi konfiqurasiya formalaşdırıb ki, xalqımız milli birliyin əhəmiyyətini tarixin heç bir dövründə olmadığı qədər yaxşı başa düşür.

Azərbaycan Respublikası inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlıdır. Suveren dövlət kimi, ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş tədbirləri təhlil etdikdə cənab İlham Əliyevin Prezidentliyi dövründə xarici siyasət kursunu, sözün əsl mənasında, uğur hekayəsi hesab etmək olar. Möhtərəm Prezidentin xarici siyasətinin təməlində bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsi dayanır. Lakin tam siyasi və iqtisadi müstəqillik əldə etmədən bərabərhüquqlu tərəfdaş kimi qəbul edilmək mümkün deyildi. Ulu öndər Azərbaycanı siyasi cəhətdən müstəqil beynəlxalq subyektə çevirsə də iqtisadi imkanların məhdud olması 2000-ci illərin əvvəllərində hələ də xarici siyasət kursu ümummilli liderin gözləntilərinə uyğun deyildi. Peşəkar diplomat olan cənab İlham Əliyev Prezident seçildikdə bu reallığın fərqində idi və diplomatik müstəvidə güc amilinin mahiyyətini gözəl anlayırdı. Beləliklə, həyata keçirilən ardıcıl, şaxələndirilmiş fəaliyyət Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunması ilə nəticələndi. Xüsusən cənab İlham Əliyevin neft-qaz amilini milli mənafeləri ehtiva edən kapitala, habelə tarix boyu bizim üçün problemə çevrilmiş strateji coğrafi mövqeyimizi isə dividendə çevirməsi xarici siyasət üçün inanılmaz imkanlar açdı. Siyasət kursunun isə işinin peşəkarı tərəfindən həyata keçirilməsi prosesin faydalılıq əmsalını qat-qat artırdı. Nəticədə 2011-ci ildə zamanında bizə laqeyd münasibət bəslənən BMT-də Azərbaycan 155 ölkənin səsini qazanaraq Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Kifayət qədər həssas dönəmə təsadüf edən üzvlük dövründə cənab İlham Əliyev bir nömrəli beynəlxalq təşkilatın ən ali qurumunda dünyanın əsas oyunçuları ilə bir səviyyədə proseslərə təsir etmə iradəsi nümayiş etdirə və milli maraqlarımızın təmin olunmasını həyata keçirə bildi. Təsadüfi deyil ki, dünyanın ikinci böyük təsisatı - Qoşulmama Hərəkatına rəhbərlik üçün Bakının namizədliyi nəzərdən keçirilərkən məhz İlham Əliyev amilinə görə Azərbaycanın Hərəkata uğurlu rəhbərlik edə biləcəyi heç kimdə şübhə doğurmurdu. Beləliklə, 2019-cu ildən etibarən Azərbaycan digər üzv ölkələrin yekdil qərarı ilə Qoşulmama Hərəkatının sədri seçildi. Bu, ölkəmizin xarici siyasəti üçün önəmli uğur, eyni zamanda Qoşulmama Hərəkatının tarixində dönüş nöqtəsi oldu. Təsisat məhz cənab İlham Əliyevin sədrliyi dövründə aktiv qlobal subyektə çevrildi. Hətta bir sıra qlobal miqyaslı proseslərdə BMT-dən daha effektiv, daha təsirli və daha nəticəyönümlü iş əmsalı ortaya qoydu. Nəzərə alaq ki, Azərbaycanın Qoşulmama Hərəkatına rəhbərlik etdiyi dövr bir tərəfdən dərinləşən siyasi qütbləşmə, digər tərəfdən iqtisadi böhran, ən əsası isə XXI əsrdə dünyanın ən böyük pandemiyası - COVID-19-un yayılması proseslərə müdrik yanaşma tələb edirdi. Cənab İlham Əliyev bu prosesdə də qlobal lider olduğunu göstərdi. Təsadüfi deyil ki, pandemiya ilə mübarizədə qlobal səylər məhz cənab İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı çərçivəsində birləşdirildi. Dünyanın qəbuledilən güc mərkəzlərinin "peyvənd milliyyətçiliyi" fonunda prosesdə mərkəzdənqaçma və avantürist yanaşmalara qarşı cənab İlham Əliyev cəsarətlə mübarizə apardı və BMT İnsan Haqları Şurası prosesə münasibət bildirməli oldu və bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlılığın təmin edilməsinə dair qətnamələr qəbul edildi. Eyni zamanda pandemiya sonrası dünya düzəni məsələsi məhz cənab İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyasının mövzusu oldu. Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dönəmində özünün qızıl dövrünə qədəm qoydu. Təsadüfi deyil ki, Hərəkatın beynəlxalq aləmdə nüfuzunun artması və səmərəli fəaliyyəti ölkəmizin sədrliyinin daha bir il uzadılması ilə nəticələndi.

Prezident İlham Əliyevin Azərbaycanın xarici siyasət kursunda şah əsərlərindən biri də beynəlxalq ictimaiyyətin Azərbaycana ehtiram olaraq və "yaşıl enerji" sahəsində görülən işlərə əsaslanaraq COP29-a ev sahibliyini ölkəmizə həvalə etməsidir. COP29-un uğurlu nəticələri deməyə əsas verir ki, Azərbaycan cənab İlham Əliyevin rəhbərliyində iqlim dəyişmələri ilə mübarizədə yeni səhifə açdı. Çünki məhz Azərbaycanın sədrliyi və yorulmaz səyləri ilə əldə olunan nəticələr baxımından COP29 cənab İlham Əliyevin dediyi kimi, "ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək".

Cənab İlham Əliyevin formalaşdırdığı yeni dövr xarici siyasət kursumuzun digər vacib konseptual elementi isə Azərbaycanın daha çox qlobal oyunçu kimi çıxış etmək niyyətində ehtiva olunur. Sirr deyil ki, əvvəllər regional problemlər ucbatından daha çox lokal reallıqlara köklənməli olsaq da məhz mövcud siyasi iradənin qətiyyəti ilə Azərbaycan artıq həmin dövrləri geridə qoyaraq özünü qlobal oyunçu kimi təsdiq edə bilib. Bu gün isə hədəfimiz Zəfər qazanmış, reallıqlar yaratmış lider dövlətin haqlı mövqeyi üzərində bərqərar olunub.

Azərbaycan artıq əvvəlki qaydalarla - ikili standartla formalaşan riyakar qlobal nizamın şərtləri ilə hesablaşmaq niyyətində deyil. Əlbəttə, bunun da kökündə nail olduğu ciddi hərbi-siyasi, sosial və iqtisadi uğurlar dayanır. Dövlət başçısının hər bir Azərbaycan vətəndaşının qəlbini qürurlandıran formada qətiyyətlə dediyi kimi, "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!". Bu isə Bakıya özünün xarici siyasət kursunu daha rahat formada korreksiya etmək və yeni dövrün tələbinə uyğunlaşdırmaq imkanı verir. Məsələn, Azərbaycan artıq maskası yırtılmış beynəlxalq hüquq subyektlərinin riyakarlığına və ayırıcı xətlərdə ehtiva olunan selektiv siyasətinə dözmək niyyətində deyil. Ona görə də yeni dövrün memarı olan cənab İlham Əliyev beynəlxalq fəaliyyətdə prioritet olaraq Türk dünyası ilə əlaqələri müəyyən edir. Müzəffər Ali Baş Komandanın təbirincə desək, "böyük coğrafiya, böyük ərazi, böyük hərbi güc, böyük iqtisadiyyat, təbii sərvətlər, nəqliyyat yolları, gənc və artan əhali" kimi vacib elementləri birləşdirən Türk Dövlətləri Təşkilatı həm də bir soydan, kökdən xalqlar olması baxımından Azərbaycan üçün ailədir. Bu mənada, cənab İlham Əliyevin Azərbaycan Respublikasının xarici siyasətinin prioritetlərindən biri kimi Türk dünyası ilə münasibətlərin dərinləşdirilməsini müəyyən etməsi də xarici siyasət kursumuzun mühüm uğurlarındandır. Məhz cənab İlham Əliyev tarix və mədəniyyət sahələrində zəngin müştərək irs, eyni dil və din amillərini münasibətlərimizin uğurlu inkişafında səmərəli alətə çevirməklə Türk tarixində yeni dövr başlatdı. Türkiyə və Azərbaycan münasibətləri Şuşa Bəyannaməsinə qədər yüksəldi, o cümlədən Mərkəzi və Orta Asiya dövlətləri ilə də münasibətlər prioritetə çevrildi.

Möhtərəm Prezidentin şərəfli fəaliyyəti son 200 ilin gündəliyindən daha zəngin, daha mürəkkəb, həm də tariximizin ən uğurlu periodudur. Onun şah əsəri isə şübhəsiz ki, böyük Zəfərimizdir. Ümumiyyətlə, bəllidir ki, Qarabağ düyünü ulu öndərin nisgili idi, hətta özünün 2003-cü il 1 oktyabr tarixli son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Baxmayaraq ki, böyük Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük verdi. Əslində isə ulu öndərin dediyi kimi, "Bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi" və cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə dövlət idarəçiliyi milli düşüncədə və doğru əldə olmalıdır.

Böyük hərbi-siyasi Zəfərə qədər cənab İlham Əliyev güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Çadır şəhərciklərini ləğv edərək vətəndaşın layiqli rifahını, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığını təmin etdi, 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Bu Zəfərə qədər cənab İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, çoxəsrlik dövlətçilik ənənəsinin əhəmiyyətini dərk edən vətənpərvər gənclik yetişdirdi. Cənab İlham Əliyev bütün dünya ilə, xüsusən yanlış gözləntilərdə olan bəzi qlobal dairələrlə ideoloji savaşa girib, bu savaşdan da zəfərlə çıxaraq sübut etdi ki, Azərbaycan xalqı torpaqlarının zəbt olunması ilə barışa bilməz və bu siyasi xətt illərlə davam etmiş işğalın Azərbaycan gəncliyinə Qarabağ və Şərqi Zəngəzuru unutdurmasına imkan verməz. Məhz bu qətiyyətli mövqeni rəhbər tutmaqla 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Zəfərdən cəmi 8 gün sonra özünün ən sadiq silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev irihəcmli quruculuq-bərpa prosesinə start verdi. Möhtərəm Prezidentin özünün də ifadə etdiyi kimi, Azərbaycanın öz gücü, öz imkanları hesabına, bu gün Qarabağ və Şərqi Zəngəzura layiqli və təhlükəsiz həyat qayıdıb və proses uğurla davam edir.

Müasir reallıqda Azərbaycan nə ərazisi, nə əhali sayına görə xüsusi göstəricilərə malik deyil, kiçik ölkə sayılır. Lakin məhz cənab İlham Əliyevin sayəsində Azərbaycan müasir geosiyasi situasiyada, bütövlükdə qlobal mənada hərbi-siyasi güc mərkəzlərindən birinə çevrilib. Məlumdur ki, hazırda Azərbaycan Respublikası özünün ənənəvi enerji öhdəliklərinə sadiq qalmaqla, neft hasilatından tədricən qaz istehsalına strateji keçidi təmin etmək üzrədir və bu, müasir mərhələdə Azərbaycanın enerji siyasətinin şaxələndirilməsində çox vacib addım hesab olunmalıdır. Məhz möhtərəm Prezidentin uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar, həmçinin Onun iradəsi ilə reallaşan layihələr bu gün faktiki olaraq Azərbaycanı Avropa üçün alternativsiz və cazibədar enerji təchizatçısına çevirib. Xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda, qütblərarası ziddiyyətlərin dərinləşdiyi bir zamanda Azərbaycan Prezidentinin nə qədər uğurlu gedişlər etdiyini və çoxlarının süni əngəllər yaratmasına baxmayaraq, nə qədər strateji düşüncə sahibi olduğunu bir daha ortaya çıxarır. Bu gün faktiki olaraq Azərbaycan Avropanın, xüsusən Avropa İttifaqına üzv olan bir sıra dövlətlərin enerji təhlükəsizliyində həlledici rol almaqdadır, o cümlədən Azərbaycanın Balkanlarda və Şərqi Avropada artan rolu bu baxımdan Avropa İttifaqının ayrı-ayrı strukturlarının Azərbaycana qeyri-adekvat və ədalətsiz yanaşmaları fonunda Bakının ciddi qələbəsi hesab olunmalıdır. Yalnız elə bu fakt deməyə əsas verir ki, əhali sayı və ərazi baxımdan böyük potensialımızın olmamasını məhz cənab İlham Əliyevin vizyonu tam şəkildə nəinki kompensasiya edir, üstəlik, ərazi və əhali göstəriciləri bizdən qat-qat artıq olan dövlətlər qlobal nüfuz baxımından Azərbaycandan çox geri qalır.

Əlbəttə, Azərbaycanın uğurları, artan iqtisadi imkanları və bundan dolayı güclənən suverenliyi, müstəqil siyasət yürütməsi regionla bağlı qeyri-adekvat maraqları olan neoimperialist güclər tərəfindən müsbət qarşılana bilməzdi. Xüsusən Vətən müharibəsində Azərbaycanın Zəfəri, habelə antiterror tədbirlərində qələbə, konstitusiya quruluşumuzun beynəlxalq hüquqla tanınan bütün ərazilərimiz boyu bərqərar olunması regionda qeyri-dost niyyətləri olan gücləri ölkəmizə qarşı səfərbər etdi. Bu prosesdə də ənənəvi destruktiv Qərb strukturları, muzdlu media və korrupsioner siyasətçilər beynəlxalq ictimaiyyət adından ölkəmiz əleyhinə müxtəlif bəhanələrlə siyasi hücumlar təşkil etməyə, bəyanatlar verməyə başlayıblar. Özünü beynəlxalq ictimaiyyət adlandıraraq dünya birliyi adından çıxış edənlərə münasibətdə möhtərəm Prezidentin mövqeyi kifayət qədər aydın oldu, "200-dən çox ölkə var, 20-30 ölkə özünü necə beynəlxalq ictimaiyyət saya bilər?". Bu qətiyyətli mövqe nəticəsində ötən üçillik perioda baxsaq, cənab İlham Əliyevin qərəzli hücumların hamısını neytrallaşdırmağa nail olduğunu, hətta kifayət qədər önəmli qlobal oyunçuları geri addım atmağa məcbur etməyə nail olduğunu görərik. Möhtərəm Prezidentin siyasi gedişləri, beynəlxalq hüquqa və ədalətə arxalanması, ən vacibi hüququn gücü və gücün hüququ arasında balansı qorumaqla atdığı addımlar planetar müstəvidə Azərbaycana hörmət və ehtiramın bərqərar olunmasını təmin etdi.

Xüsusən, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və Qoşulmama Hərəkatının sədri qismində cənab İlham Əliyevin uğurlu fəaliyyəti, onun bəşəri miqyasda lider kimi mövqelərinin möhkəmlənməsi Azərbaycanın qələbələrinin sağlam təməllər üzərində təmin etdi. Dünya ictimaiyyəti gördü ki, pandemiya ilə mübarizədə qlobal səylərə məhz cənab İlham Əliyev liderlik etdi, eyni zamanda postpandemiya yol xəritəsinin cızılmasında həlledici liderlik missiyasını üzərinə götürdü. Digər tərəfdən Türk dünyasının birliyi istiqamətində açar rolunu üzərinə götürməklə cənab İlham Əliyev nəinki Azərbaycanın, bütövlükdə Türk dünyasının qlobal miqyasda imkanlarını genişləndirdi.

Bütün bunların nəticəsidir ki, lokal xarakterli antiterror tədbirlərinin ardınca Azərbaycana qarşı çıxan güclər beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərlə uyğun, suveren haqlarını bərpa etməsi faktını qəbullanaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinə dəstək verdilər. Beləliklə, cənab İlham Əliyev sübut etdi ki, beynəlxalq ictimaiyyətin Azərbaycana real baxışının göstəricisi hansısa muzdlu təşkilatın, 3-5 korrupsioner deputatın, yaxud çürümüş neoimperialistlərin bəyanatları yox, 200-ə yaxın ölkənin yekdil rəyi ilə dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ev sahibliyini Azərbaycana həvalə etməsidir. Bu, cənab İlham Əliyevin də ifadə etdiyi kimi, bizə olan ehtiramın ifadəsidir və bu ehtirama möhtərəm Prezidentin qətiyyəti ilə nail olmuşuq.

Qeyd olunanlar fonunda əminliklə demək mümkündür ki, Prezident İlham Əliyev ulu öndər siyasətinə sadiq qalaraq yeni dövr üzrə müəyyənləşən hədəfləri Azərbaycanın real müstəqillik tarixində yeni dövrə keçidi təmin edəcək mükəmməl siyasi mərhələyə çevirə bilmişdir. Üstəlik, cənab İlham Əliyev elə konfiqurasiyaya nail ola bilmişdir ki, hər bir Azərbaycan vətəndaşı özünü bu transformasiyanın bir hissəsi və hərəkətverici qüvvəsi hesab edir. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbərin dövlətçiliyin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilmədiyi bir şəraitdə cənab İlham Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci maddəsinə müvafiq olaraq xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini şərəflə təmin edir, Qarabağ və Şərqi Zəngəzur başda olmaqla Azərbaycanın hər bir guşəsi cənnətə çevrilməkdə, illərdir beynəlxalq ictimaiyyət tərəfindən görməzdən gəlinən daşa dirənən Qərbi azərbaycanlıların qayıdış haqlarının təmininə məhz zati-aliləri cənab İlham Əliyevin qətiyyətli mövqeyi ilə real zəmin yaranmaqdadır.

Prezident İlham Əliyevin hakimiyyəti illərində şah əsər sayılacaq və milli taleyüklü qərarları sırasında heç şübhəsiz ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsidir. Çünki ötən dövrün təcrübəsi də sübut edir ki, Azərbaycan xalqını zəfərdən zəfərə, inkişafa və tərəqqiyə aparan Heydər Əliyev yolunun davamlılığında ulu öndərin layiqli davamçısı kimi cənab İlham Əliyev şəxsiyyəti və onun idarəetmədə ən yaxın və ən sadiq silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti ciddi rola malikdir. Xalqımızın şərəfli inkişaf tarixinə nəzər salsaq, nəinki Azərbaycan tarixində, bütövlükdə regionumuzda qadının, xüsusən müsəlman xanımın cəmiyyətin həyatında, milli-mənəvi dəyərlərin müdafiəsində, habelə qlobal xarakterli fəaliyyətlərdə, ən əsası isə dövlət idarəetməsində Mehriban xanım Əliyeva qədər yüksək zirvəni fəth edən, irs və iz qoymuş ikinci nümunə yoxdur. Özü də Azərbaycanın çox tanınmış, milli genefondumuzun qızıl şəcərəsi sayılan bir nəslin nümayəndəsi olan Mehriban xanımın qətiyyətli mövqeyə malik vətəndaş kimi xidmətləri milli iradə elementinə çevrilə bilib. 2017-ci ilə qədər ölkənin ictimai-siyasi həyatında Birinci xanım institutunun Azərbaycan tarixində ən güclü nümayəndəsi, Azərbaycan Mədəniyyət Fondu, həmçinin Heydər Əliyev Fondunun rəhbəri, Milli Məclisin deputatı kimi əhəmiyyətli rol oynamış Mehriban xanım Əliyevanın 2017-ci ilin 21 fevralında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi isə fəaliyyətinin qızıl dövrünü başlatmış oldu və dövlətimiz üçün kadr islahatlarından tutmuş Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında hərbi Zəfərlərimizə qədər bütün proseslərə köklü təsirini göstərdi. Onun hər bir məsələyə yaradıcı münasibəti, insanları vahid məqsəd naminə səfərbər etmək bacarığı, humanizmi və səmimiyyəti ilə Mehriban xanım cənab İlham Əliyevin rəhbərliyi altında sosial rifahın, mədəni inkişafın dəstəklənməsinə, humanizm, mərhəmət və birlik ideallarının reallaşmasına yönələn çoxsaylı qlobal miqyaslı təşəbbüslərin ön sırasında qərarlaşmağı bacardı. Xüsusən ictimai-siyasi və sosial zərurətdən doğan reallıqda elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafı, sosial müdafiənin gücləndirilməsi, ekoloji mühitin yaxşılaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının inkişafına dair proqram və layihələrin böyük uğurla gerçəkləşdirilməsi ilə hörmətli Mehriban xanım Əliyeva Azərbaycanın elm, təhsil, sosial və mədəni həyatında yeni səhifələr açdı. Ötən dövrün yekunlarını təhlil edərkən əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandanın cəbhədə və diplomatik müstəvidə müstəsna uğurlarının təməlində dayanan ən mühüm amillərdən biri, heç şübhəsiz ki, arxa cəbhənin Mehriban xanıma etibar olunması idi. Məlumdur ki, 44 günlük savaş boyu şanlı ordumuzun hər bir hərbçisi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qələbədən-qələbəyə irəliləyərkən ailəsi Mehriban xanıma əmanət idi. Mehriban xanım Əliyeva da bu ağır, lakin şərəfli missiyanı ləyaqətlə yerinə yetirdi və əminliklə deyə bilərik ki, istər Vətən müharibəsi, istərsə də antiterror tədbirlərində arxa cəbhənin bütün sosial yükü, kədəri, qəmi, itkisi, Onun çiyinlərində oldu. Mehriban Əliyeva Vətən müharibəsində 3000-ə yaxın şəhid üçün ailəsini əmanət etdiyi ana, müharibə əlilləri üçün yaralarını saran bacı, atasını, qardaşını itirmiş minlərlə şəhid ailəsi üzvü üçün güman yeridir. Eyni zamanda bu gün Qarabağ və Şərqi Zəngəzurda uğurla davam edən böyük quruculuq və bərpa prosesində də Mehriban xanım cənab Prezidentin ən əsas silahdaşıdır. Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında formalaşan bu tandem Azərbaycanı cəmi 5 il əvvələ qədər işğal və təcavüzə məruz qalmış məğlub dövlət obrazından uğurdan uğura qətiyyətlə irəliləyən hərbi, siyasi, iqtisadi və mədəni gücə çevirə bilmişdir.

**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**